# Uydurma "erməni soyqırımı" - tarixi təhrif, siyasi manipulyasiya aləti

**Artıq bir əsrdən çoxdur ki, ermənilər hər il aprelin 24-də uydurma "soyqırımı" bəyanatları ilə çıxış edirlər. Erməni tərəfinin iddialarına görə 1915-ci ildə Osmanlı dövləti tərəfindən onlara qarşı kütləvi qətliam həyata keçirilib. Bu əsassız iddialar xüsusilə Qərb ölkələrində fəaliyyət göstərən erməni diasporu tərəfindən geniş şəkildə təbliğ olunur.**

Türkiyə dəfələrlə tarixi sənədlərin ictimaiyyətə açılması və müstəqil tarixçilərin və tədqiqatçıların araşdırması təşəbbüsü ilə çıxış etsə də, haylar bu təkliflərdən imtina edirlər. Çünki onlar çox yaxşı anlayırlar ki, belə bir "soyqırımı" heç vaxt baş verməyib. Türklərə və İslam dünyasına qarşı tarixi düşmənçilik mövqeyində olan, türkofobiya və islamofobiyanın dərin kök saldığı, özü isə keçmişində saysız-hesabsız qanlı cinayətləri ilə yadda qalan Fransa kimi dövlətlər bu məsələdə xüsusilə fəallıq nümayiş etdirirlər. Əslində bu məsələ insan haqları kontekstindən daha çox, siyasi təzyiq vasitəsi kimi Qərb dövlətləri tərəfindən Türkiyəyə qarşı istifadə olunur.

**(davamı 13-cü səhifədə)**









# Uydurma "erməni soyqırımı" - tarixi təhrif, siyasi manipulyasiya aləti

(əvvəli 1-ci səhifədə)

Araşdırmaçı tarixçilərin qənaətinə əsasən "erməni soyqırımı" anlayışı əslində Şərq məsələsinin bir parçası kimi formalaşıb. Böyük dövlətlər imperialist maraqlarını reallaşdırmaq məqsədilə ermənilərdən alət kimi istifadə ediblər. Şərq məsələsinin mahiyyətində isə Osmanlı dövlətinin ərazilərinin parçalanması, Türkiyənin dövlət olaraq sıradan çıxarılması dayanırdı. Bununla yanaşı, bu məsələ bütövlükdə Şərq xalqlarına qarşı yürüdülən müstəmləkəçi siyasətin bariz ifadəsi idi. Türkləri "soyqırımı" törətməkdə ittiham edən ermənilərin özləri tarix boyu əliyalın türk-müsəlman əhaliyə qarşı amansız cinayətlər törədiblər.

"Böyük Ermənistan" xülyası ilə alışıb-yanan erməni işğalçıları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı genişmiqyaslı qətliamlar həyata keçiriblər. Birinci Dünya müharibəsi, 1917-ci ilin Rusiyada baş vermiş fevral və oktyabr inqilablarının yaratdığı siyasi xaosdan məharətlə faydalanan ermənilər öz məkrli məqsədlərini bolşevik pərdəsi altında həyata keçirməyə cəhd göstəriblər. 1918-ci ilin martından etibarən Bakı Soveti "əksinqilabçılarla mübarizə" adı altında Bakı quberniyasının azərbaycanlı əhalidən "təmizlənməsi" planını gerçəkləşdirib. Bu dövrdə təkcə Bakı şəhərində deyil, eləcə də quberniyaya daxil olan Şamaxı, Quba və digər bölgələrdə on minlərlə mülki şəxs yalnız etnik və dini mənsubiyyətlərinə görə vəhşicəsinə öldürülüb. Quba şəhərində aşkarlanan kütləvi məzarlıq bu dəhşətli faciənin ən qanlı sübutlarından biridir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə viran edilib.

Erməni işğalçılarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər bununla yekunlaşmayıb. Birinci Qarabağ müharibəsinin gedişində törədilən Xocalı soyqırımı bəşər tarixinin ən amansız qətliamlarından biridir. Bu soyqırımından əvvəl Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun Bağanis Ayrım kəndində, eləcə də keçmiş Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı İmarət Qərvənd, Tuğ, Salakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkican, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı orada yaşayan sakinlərin bir hissəsi əvvəlcədən hazırlanmış ssenari üzrə xüsusi qəddarlıqla məhv edilib. Xocalı faciəsindən bir neçə gün öncə - 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində 80-dən artıq azərbaycanlı kütləvi şəkildə qətlə yetirilib. Xocalı faciəsindən təxminən bir ay sonra - aprelin 8-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun Ağdaban kəndinə daxil olaraq planlı şəkildə həyata keçirdiyi hücum zamanı 67 nəfər mülki şəxs - qadın, uşaq və ahıllar da daxil olmaqla - amansızlıqla qətlə yetirilib, kənddə genişmiqyaslı dağıntılar törədilib, onlarla insan girov götürülüb və bir çoxları itkin düşüb. Ağdaban kəndi tamamilə yandırılaraq yerlə-yeksan edilib. Bu vəhşiliklərin davamı olaraq 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində daha bir qanlı cinayət - Ballıqaya faciəsi baş verib. Nəticədə 24 nəfər azərbaycanlı mülki vətəndaş xüsusi qəddarlıqla öldürülüb. Bu kimi qanlı hadisələr ermənilərin türklərə hansı dərəcədə nifrət hissi bəslədiyini açıq şəkildə göstərir. Onların türklərə qarşı olan nifrəti ideoloji vasitədir. Ermənilər əzəldən sonuncu türk kar, kor, lal olsa da, öldürülməlidir prinsipi ilə hərəkət ediblər.




Qeyd edək ki, erməni millətçiləri tərəfindən irəli sürülən və bəzi Qərb dairələrinin siyasi məqsədlərlə gündəmdə saxladığı "erməni soyqırımı" iddiaları tarixi reallıqlarla üst-üstə düşmür və ciddi elmi-sənədli əsaslardan məhrumdur. Bu iddiaların arxasında siyasi manipulyasiya və tarixi təhriflər dayanır. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyası bir neçə cəbhədə mübarizə aparırdı. Bu dövrdə ermənilər imperiyanın düşməni olan Rusiya ilə əməkdaşlıq edir, cəbhə arxasında qiyamlar qaldırır, türklərə qarşı silahlı hücumlar təşkil edir, dinc müsəlman əhalini kütləvi şəkildə qətlə yetirirdilər. 1915-ci ildə Osmanlı dövləti təhlükəsizliyi məqsədilə qiyamlarda iştirak edən erməni əhalisinin döyüş bölgələrindən köçürülməsinə dair qərar verdi. Bu köçürmə qərarı "Tehcir Qanunu" (Müvəqqəti Köç Qanunu) adlanır və bütün etnik erməniləri deyil, yalnız təhlükə yaradan bölgələrdəki əhalini əhatə edirdi. Erməni tərəfi iddia edir ki, guya 1.5 milyon erməni qətlə yetirilib. Lakin bu sübut olunmamış rəqəmdir. Osmanlı arxivlərinə, eləcə də müstəqil araşdırmalara əsasən 1915-ci ildə imperiya ərazisində yaşayan erməni əhalisinin sayı 1.2-1.3 milyon civarındaydı. Bu əhalinin bir hissəsi döyüşlər nəticəsində, bir hissəsi isə xəstəlik, aclıq, çətin yol şəraiti və iqlim səbəbi ilə həyatını itirmişdir. Eyni dövrdə 2 milyondan artıq müsəlman da erməni silahlı dəstələri və müharibə nəticəsində həlak olmuşdur.

Ən çox manipulyasiya edilən məqam isə erməni ideoloqlarının iddia etdikləri kimi guya daxili işlər naziri Tələt Paşanın "erməni soyqırımı"na dair əmr verməsidir. Bu günə qədər belə bir sənədin orijinalı təqdim olunmayıb. Əksinə, bu iddiaların uydurma "Andonyan sənədləri" kimi saxta mənbələrə əsaslandığı sübut olunub.

**Musa BAĞIRLI,**
**"Respublika".**